*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *p-ISSN: 2410-5600*
*Əlyazmalar yanmır / Manuscripts don't burn № 1, 2025, səh. 62-66*

https://doi.org/10.59849/2410-5600.2025.1.62

UOT: 821.222.1

**Xatın Cəfərli**
*filologiya üzrə fəlsəfə doktoru*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç.26*
*e-mail: hatya_5@hotmail.com*

# SAHİB İBN ƏBBADIN "ƏL-İQNA FİL ARUD VA TƏXRİCİL QAVAFİ" ƏSƏRİNDƏ QAFİYƏNİ TƏŞKİL EDƏN HƏRF VƏ HƏRƏKƏLƏR BARƏDƏ

## Xülasə

Məqalə Sahib ibn Əbbadın "əl-İqna fil arud va təxricil qavafi" əsəri haqqındadır. Bu əsər ərəb əruz və qafiyənin nəzəri əsasları haqqında olduqca qiymətli mənbələrdən biridir.

"Əl-İqna" əsərinin ərəb qafiyəsinin nəzəri əsaslarından bəhs edən hissəsi həcm etibarilə kiçik olsa da, bu elmin bütün əsas tərkib hissələrini özündə ehtiva edir. Sahib bin Əbbad burada ərəb qafiyəsinin hərf və hərəkələr, qafiyənin eyibləri, qafiyənin hüdudları və s. məsələlər haqqında qısa da olsa məlumat verir.

X əsrin görkəmli ictimai-siyasi xadimi, alimi, ədibi, şairi olan Sahib ibn Əbbadın "əl-İqna fil arud va təxricil qavafi" əsərinin öyrənilməsi ən azı iki cəhətdən aktualdır: birincisi biz bu əsəri araşdırmaqla əruz haqqında yazılmış və dövrümüzə qədər gəlib çatan ilk mənbələrdən birini öyrənmiş oluruq. Bu isə bizə ərəb əruz elminin ilk dövrləri, xüsusilə, Xəlil ibn Əhmədin kitabı haqqında müəyyən məlumatlar vermiş olur. İkincisi isə biz, əruz və qafiyənin nəzəri əsasları haqqında daha aydın elmi təsəvvürlərə yiyələnir, yüzlərlə Şərq şairinin bu janrlarda yazılmış əsərlərilə daha yaxından tanış olmaq və onların bədii-estetik mahiyyəti aydınlaşdırmaq imkanı əldə edirik.

***Açar sözlər:*** *Sahib ibn Əbbad, qafiyə, şair, alim, hərf, hərəkə*

## Giriş

*Mənbələrin verdiyi məlumata görə dövrünün görkəmli ədibi, şairi, alimi və eyni zamanda, ictimai-siyasi xadimi olan Sahib Əbülqasim İsmail bin Əbbad hicri 326, miladi 938-ci ilin sentyabr ayında Qəzvin yaxınlığındakı Taleqan və yaxud da İstəxrdə doğulmuşdur. Sahib bin Əbbadın Şeyxüləmin ləqəbi ilə tanınan atası Əbül Həsən Əbbad Rüknüddövlənin vəziri və katibi olmuşdur.*

*İlk təhsilini atasından alan Sahib bin Əbbad, təhsilini daha sonra Büveyhi vəziri olan, ədib və şair Əbülfəzl İbnül Əmidin yanında davam etdirmişdir. Dil və ədəbiyyat dərslərini isə dövrünün ən görkəmli filoloqlarından sayılan İbn Farisdən almışdır. Sahib bin Əbbadla İbn Farisin arasında bir müəllim və tələbə kimi məhəbbət o qədər böyük olmuşdur ki, İbn Faris hətta "Əs-Sahibi fi fiqhil-lüğa" əsərini Sahib bin Əbbada ithaf etmişdir [4].*

*Sahib bin Əbbad İbn Farislə yanaşı, Əbülfəzl Abbas bin Məhəmməd ən-Nəhvi, Əbu Səid əs-Sirafi, İbn Miqsəm əl-Əttar, Abdulla bin Cəfər bin Farisdən də dərs almışdır. Həmçinin o, Əbu Məhəmməd bin Faris, Əhməd bin Kamil bin Şəcərə kimi hədis bilicilərinin yanında oxumuşdur. Sahib bin Əbbad sonralar özü də hədis rəvayət etmiş və hədis söyləyəcəyi zaman əvvəlcə "Beytüt- tövbə" adlandırdığı*

*evində tövbə edər, sonra hədis söyləyərmiş. O, həmişə hədis toplamağı və yazmağı tövsiyə edər, "hədis yazmayan kimsə islamın dadını bilməz" deyərmiş [ 4, s.512].*

*Sahib bin Əbbadın saraya ilk gəlişi təqribən 958-ci ildə Büveyhilərin vəziri Əbülfəzl ibn Əmid vasitəsiylə olmuş, Sahib bin Əbbad ilk növbədə İbn əl-Əmidin katibi olduqdan sonra, 970-ci ildən etibarən İsfəhanda Müəyyididdövlənin vəziri mənsəbinə qədər yüksəlmişdir. 976-cı ildə atası Rüknüddövlə vəfat etdikdən sonra Reyə hakimiyyət başına keçən Müəyyididdövlə, Sahibi də özü ilə bərabər Reyə gətirmişdir [5;6].*

*Sahib bin Əbbad dövrünün görkəmli ictimai-siyasi xadimi, eyni zamanda, görkəmli şairi, ədibi və alimi olmuşdur. Mənbələr ona məxsus 25-dən artıq elmi əsərin olduğunu qeyd etməkdədirlər. Onun əsərləri içində əruz və qafiyənin nəzəri əsaslarından bəhs edən "əl-İqna fil arud va təxricil qavafi" əsəri xüsusi mövqeyə malikdir. O, bu sahədə əlimizə gəlib çatan ilk mənbələrdən biri olduğu üçün olduqca dəyərlidir.*

*Adı müxtəlif mənbələrdə müxtəlif cür xatırlanan bu əsər 1960-cı ildə Bağdadda görkəmli ərəb alimi Məhəmməd Həsən Al-e Yasin tərəfindən "əl-İqna fil əruz və təxricil qəvafi" adı ilə nəşr olunmuşdur. Məhəmməd Həsən Ali Yasin əsərin adı və əlyazma nüsxələri haqqında ətraflı məlumat verir: "Bu kitabın adı mənbələrdə müxtəlif adlar altında çəkilmişdir. Onu bəzən "əl-İqna fil-arud" (əruz elmində qane etmə), bəzən isə, sadəcə "Arud" adlandırıbar. Brokkelman isə onu "əl-İqna fil-arud va təxricil-qavafi" (əruz elmi və qafiyələrin çıxarılması, tərtibi sahəsində qane etmə) adlandırmışdır. Yaqut əl-Həməvi "Muəlləfat əs-Sahib" (Sahibin kitabları) əsərində onun adını "əl-Arud əl-kafi" (kifayət edən əruz) və "Nəqzul-arud" (əruz qaydalarının pozulması) kimi qeyd edir. Əlyazmasının birinci səhifəsində isə bu kitab "əl-İqna fil-arud va təxricil-qavafi" adlandırılmışdır. Güman edirəm ki, Brokkelman kitabın adını məhz bu əlyazmadan götürmüşdür.*

*Adı müxtəlif mənbələrdə müxtəlif cür xatırlanan bu əsər 1960-cı ildə Bağdadda görkəmli ərəb alimi Məhəmməd Həsən Al-e Yasin tərəfindən "əl-İqna fil əruz və təxricil qəvafi" adı ilə nəşr olunmuşdur.*

### "əl-İqna fil arud va təxricil qavafi" əsərində qafiyəni təşkil edən hərf və hərəkələr

Sahib bin Əbbadın "əl-İqna fil arud va təxricil qavafi" əsərinin ikinci hissəsi qafiyə və onun nəzəri əsaslarına həsr olunmuşdur. Bu hissəsinin kiçik olmasına baxmayaraq, orada ərəb qafiyəsi və onun nəzəri əsaslarından kifayət qədər dolğun şəkildə bəhs edilmişdir. Doğrudur, Xətib Təbrizinin "Əl-Kafi" əsərinin müvafiq hissəsi Sahib bin Əbbadın "Əl-İqna" əsərindəkindən daha əhatəlidir. Xətib Təbrizi Sahib bin Əbbaddan fəqli olaraq, dediyi nəzəri müddəalara daha artıq şeir nümunələri misal vermişdir. Buna görə də "əl-Kafi" əsərində olan qafiyə hissəsi "əl-İqna"dakından həcm etibarilə daha böyük alınmışdır. Lakin nəzəri müddəaların elmi dəyərinə gəldikdə, hər iki əsər demək olar ki, eynidir, və elmi məlumatların dəqiqliyi baxımından Sahib bin Əbbadın əsəri Xətib Təbrizinin əsərindən heç də geri qalmır.

Ümumiyyətlə, əruz bəhsində olduğu kimi, qafiyə elmindən də danışarkən, bütün ərəb mənbələri əsasən eyni məsələləri izah edir, öz əsərlərini eyni prinsip üzrə qələmə alırlar. Həmin əsərlərdə gördüyümüz kimi, Sahib bin Əbbad da ilk növbədə qafiyə hərflərinin izahını verir, daha sonra onun eyiblərindən danışır, hüdudlarından söhbət açır və nəhayət, buradakı hərəkələrdən bəhs edir. Bu prinsip azacıq yerdəyişməklə, demək olar ki, qafiyə haqqındakı bütün orta əsr ərəb mənbələrində qorunur. Ona görə, biz də dissertasiyada Sahib bin Əbbadın əsərinin yazılma prinsipinə sadiq qalaraq, ilk növbədə, ərəb şeirində qafiyəni təşkil edən hərflərin izahına yer verəcəyik.

Əksər ərəb alimlərinə və o cümlədən, Sahib bin Əbbada görə ərəb qafiyəsini təşkil edən hərflərin sayı əsasən, altıdır: təsis, dəxil, ridf, rəvi, vəsl və xüruc. Sahib bin Əbbad qafiyə hərflərinin izahına rəvi hərfindən başlayır. Onun fikrincə, rəvi şairin öz qəsidəsini üzərində qurduğu hərfdir. Şair həmişə rəviyə möhtacdır. Alimin yazdığına görə, حومل (huməl) sözündəki lam hərfi rəvi və onun hərəkəsi isə məcradır.

Ridf rəvidən əvvəl gələn, birbaşa sıralanan əlif, vav və yə-yə deyilir. Məsələn, حال (hal) sözündə olan əlif, غفور (ğəfur) sözündə olan vav və نفير (nəfir) sözündə olan yə kimi. Ridfin hərəkəsinə isə həzv deyilir. Qeyd edək ki, Sahib bin Əbbada görə, vav və yə hərfləri ridf mövqeyində işlənən zaman, bir qafiyənin tərkibində müştərək şəklində işlənə bildikləri halda, əliflə belə bir halın baş verməsi mümkün deyildir.

Təsis, onunla rəvi hərfi arasında təkrar olunması zəruri hesab edilməyən hərf işlənən zaman, birinci əlifə deyilir. Məsələn, ناصب (nasib) və كوا كب (kəvakib) sözlərində olduğu kimi. Burada b hərfləri rəvi, əlif hərfləri isə təsisdir, onun hərəkəsi rəssdir.

Sahib bin Əbbada görə rəvi ilə təsis arasında gələn və təkrarı zəruri olmayan hərfə dəxil, hərəkəsinə isə işba deyirlər. Maraqlıdır ki, bəzi alimlər dəxilin dəqiq şəkildə təkrarlanmasının vacibliyini o qədər də zəruri saymadıqları üçün bəzən ərəb qafiyə hərflərinin sayını altı, bəzən isə beş hesab etmişlər. Belə ki, professor Tərlan *Quliyev dəxil hərfindən danışarkən, Sahib bin Əbbada əsaslanaraq, aşağıdakı fikirləri yazır: "...Ərəb qafiyəsində işlənən hərflərin hər birinin özünəməxsus mövqeyi və xüsusiyyətləri vardır. Lakin bəzi qafiyəşünaslar dəxildən danışsalar da, onu qafiyənin təşkilində iştirak edən hərflər sırasına salmır, dəxili qafiyə hərflərindən hesab etmirlər. Bu barədə xüsusilə, Sahib bin Əbbadın fikirləri maraqlıdır. Belə ki, o, dəxilin qafiyələnmiş sözlərin tərkibində təkrarlanmasını o qədər zəruri hesab etmir. Çünki ərəb qafiyəsinin təşkilində dəxilin mütləq şəkildə təkrarlanması o qədər də vacib deyildir. Bizcə, buna görə də bəzi ərəb alimləri dəxilə əsas qafiyə hərfi kimi baxmır, bu səbəbdən də öz əsərlərində qafiyə hərfləri sırasında dəxilə ayrıca yer vermir, onun adını digər hərflərdən danışarkən, qısa şəkildə çəkməklə, kifayətlənirlər*" [2, s.94]. Professor Tərlan Quliyev öz fikirlərini əsaslandırmaq və Sahib bin Əbbadın bu fikirdə tək olmadığını bildirmək üçün İbn Əbd Rəbbihinin fikirlərinə də müraciət edir. Professor Tərlan Quliyevə görə " *İbn Əbd Rəbbihi də öz əsərində qafiyədən və onu təşkil edən hərflərdən danışarkən, bu hərflərin sırasında dəxlin adını çəkmir. Lakin sonradan, onun haqqında qısa bir qeyd etməklə kifayətlənir*" [3, s.172].

Vəsl rəvidən sonra birbaşa gələn əlif, vav, yə və hə hərfinə deyilir. Məsələn, حوملي (huməli) sözündəki yə, حوملو (huməlu) sözündəki vav, حوملا(humələ) sözündəki əlif və حومله (huməlhə) sözündəki hə kimi. Vəsl və yaxud, silə hə-si adlanan hə bəzən mövquf (yəni üzərində vəqf olunduğu üçün sükunlu) və bəzən də hərəkəli olur. Məsələn, حوملها (huməlha), حوملهو (huməlhu), حوملهى (huməlhi). Sahib bin Əbbada görə vəslin hərəkəsi nəfazdır.

Alimin fikrincə, xüruc isə hərəkəli vəsldən sonra gələn əlif, vav və yə-dir. Məsələn, اجمالها (icmaləha) sözünün axırındakı əlif, اجمالهو (icmələhu) sözünün axırındakı vav və اجمالهى (icmələhi) sözünün axırındakı yə kimi.

Qeyd edək ki, Xətib Təbrizidə də ərəb qafiyəsini təşkil edən hərflər haqqında təqribən bu fikirlərlə rastlaşırıq, sadəcə olaraq, izahlar və deyilən nəzəri fikirlərə verilən nümunələr bir qədər artıqdır. Nəzəri fikirlərin mahiyyətinə gəldikdə isə, onlar da hər iki müəllifdə demək olar ki, eynidir. Bir-iki yerdə Xətib Təbrizidə daha artıq fikir ola bilər. Bu mənada, biz əyanilik xatirinə Xətib Təbrizinin ərəb qafiyəsinin hərflərindən bəhs edərkən əsas nəzəri məsələlər haqqında olan fikirlərini xatırlatmaq istəyirik. Xətib Təbrizi yazır: " *Ravi - ...o, üstündə qəsidənin qurulduğu və mənsub olduğu hərfdir. Məhz buna görə deyirlər: raiyyə və ya dəliyyə qəsidəsi... Bu hərf hər bir beytin axırı üçün lazımdır və labüddür ki, hər bir şeirdə onun kiçik və ya böyük olmasına baxmayaraq, ravi hərfi işlədilir...* Bu hərf ona görə ravi adlandırılmışdır ki, onun əsl mənası toplamaq, əlaqələndirmə, bir yerə yığmadır. Məhz buna görə də riva sözü işlədilir ki, o da yük və malları bağlamaq üçün istifadə edilən kəndirin adıdır. Ravi hərfi də bu kəndir kimi beytin bütün hərflərini bir yerə toplayır və bu mənaya görə ravi adlanır. Bəzi istisnalardan başqa dildə olan bütün hərflər ravi ola bilər...

Vasl – ...Dörd hərf vasl ola bilər. Onlar əlif, vav, yə və hə-dir. Onlar ravi hərfindən sonra gəlir və sükunlu olurlar. Əgər ravi hərfi dammalıdırsa, ondan sonra vav, əgər kəsrəlidirsə, ondan sonra yə, əgər

fəthəlidirsə, ondan sonra əlif, habelə sükunlu və ya hərəkəli hə gəlir... Vasl ona görə vasl adlandırılmışdır ki, ravi hərfinin hərəkəsinə bağlıdır... Bu hərəkələr birləşəndə və uzun deyiləndə ondan yumşaq ... hərflər yaranır.

Xüruc - ... Üç sükunlu hərf əlif, vav və yə xüruc ola bilər. Onlar "hə vasl" dan... sonra gəlirlər... O ravinin vaslını aşkar edərək göstərdiyindən və vaslın həddindən kənara çıxdığına görə ... xüruc adlandırılmışdır.

Ridf ... Ravi hərfindən qabaq gələn üç sükunlu hərf – əlif, vav və yə ridf ola bilər. Vav və yə birlikdə bir qəsidədə gələ bilər. Ancaq əlif daim tək gəlir... O, ravinin əlavəsi olduğu üçün və onunla bərabər bir qaydaya tabe olduğu üçün ridf adlandırılmışdır. Belə ki, süvarinin tərkinə minən adam süvarinin taleyinə düçar olur. Çünki o, minik heyvanla bir yerdədir və onun arxasına minmişdir.

Təsis ... O yalnız əlif hərfi ilə baş verir və ravi hərfinin önündəki hərfin qabağına gəlir.

Dəxil ... O təsis və ravi arasında olan hərfdir... Adətən insanın ağlına gəlmir ki, hansı hərf dəxildir. Bu hərf məhz ona görə dəxil... adlandırılmışdır ki, o elə bil ki, qafiyənin içərisinə daxil olmuşdur və sən onu başqa hərflər kimi, yəni təsisin rədifi kimi fərqli... görə bilmirsən" [1, s.145-151].

**Nəticə**

*Gördüyümüz kimi, hər iki müəllifdə nəzəri fikirlər təqribən üst-üstə düşür. Xətib Təbrizi sadəcə olaraq, ərəb qafiyəsini təşkil edən hərflərin adlarını, etimoloji mənalarını daha geniş izah edir. Nəzəri fikirlərə gəldikdə isə, Xətib Təbrizinin məsələn, rəvidən danışarkən, "bu hərf hər bir beytin axırı üçün lazımdır və labüddür ki, hər bir şeirdə onun kiçik və ya böyük olmasına baxmayaraq, ravi hərfi işlədilir", "bəzi istisnalardan başqa, dildə olan bütün hərflər rəvi ola bilər" və s. kimi kiçik fikirləri yalnız Sahib bin Əbbaddan artıqdır. Hər iki əsərdə demək olar ki, üst-üstə düşən fikirlər daha çoxdur. Məsələn, hər iki əsərdə rəvidən danışılarkən "O üstündə qəsidənin qurulduğu... olduğu hərfdir", ridfdən danışılarkən isə "vav və yə birlikdə bir qəsidədə gələ bilər, ancaq əlif daim tək gəlir" və s. kimi fikirlər hər iki əsərin bir-birinə yaxın olduğu mülahizəsini bir daha xatırlatmış olur.*

**Ədəbiyyat siyahısı:**

1. Xətib Təbrizi. Kitab əl-kafi fi-l-əruz və-l-qəvaf / - Bakı: Tural NPM, - 2005. -424 s.
2. Quliyev, T. Əruz və qafiyəşünaslıq tarixi (VIII – XVI əsrlər) / - Bakı: - 1998. -180 s.
3. Quliyev, T. Əruz və qafiyəşünaslıq tarixi / - Bakı: - 2013. - 292 s.
4. Çelebi, İlyas. Sahib b. Abbad. Türkiye Diyanet Vakfı // İslam Ansiklopedisi – İstanbul: - 2008. cilt 35, - s. 512-515.
5. tr.wikipedia.org/wiki/Buveyhoğulları
6. www.turkcebilgi.com/ansiklopedi/ buveyhiler

**Xatun Jafarli**

## About letters and movevents that make up rhyme in the work of Sahib ibn Abbad "al-Iqna fil arud wa takhrijil gawafi"

***Summary***

This article is about work of Sahib ibn Abbad "al-Iqna" fil arud wa takhrijil gawafi". This work is one of the most valuable sources on the theoretical foundations of Arabic rhyme and rhyme. Although the part of "al-İqna" that deals with the theoretical foundations of Arabic rhyme is small in volume, it contains all the main components of this science. Sahib ibn Abbad here provides brief information on the letters and movements of Arabic rhyme, the flaws or rhyme, the limits of rhyme and etc.

The study of the work of Sahib ibn Abbad, a prominent public and political figure, scientist whiter and poet of the 10 th century, "al-Iqna" fil arud wa takhrijil gawafi" is relevant in at least two respects: fist, by studying this work we learn one of the first sources whitten about arud and that have survived to our time. This gives us certain information about the early periods of Arabic arud science in particular, the book of Khalil ibn Ahmad. Second, we acquire clearer scientific ideas about the theoretical foundations of arud and rhyme and we get the opportunity to become more familiar with the works of hundreds of Eastern poets written in these genres and clarity their artistic and aesthetic essence.

***Key words:*** *Sahib ibn Abbad, rhyme, poet, scientist, letter, movement*

*Filologiya üzrə elmlər doktoru, dosent* ***Rübabə Şirinova***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*